

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 171 (21.323)

*2 sentyabr 2015-ci il, çərşənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


***Rəsmi xronika***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 1-də Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovu qəbul edib.

Ölkələrimiz arasında ikitərəfli münasibətlərin dinamik şəkildə uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin ölkəsinin Dövlət bayramı – Rusiya Günündə birinci Avropa Oyunlarının açılış mərasimində iştirak etmək üçün Azərbaycana səfər etməsinə ölkəmizdə böyük önəm verildiyini dedi və bu səfəri əlaqələrimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev əməkdaşlığımızın müxtəlif sahələri ilə bağlı məsələlərin operativ və səmərəli şəkildə həll olunduğunu vurğulayaraq, bu baxımdan müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi.

İki ölkənin Xarici İşlər nazirlikləri arasında BMT, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar çərçivəsində dövlətlərimizin qarşılıqlı fəaliyyət məsələlərinin müzakirəsinin əhəmiyyətinə toxunan Sergey Lavrov uğurla inkişaf edən parlamentlərarası əməkdaşlığımızın da Rusiya tərəfindən yüksək qiymətləndirildiyini bildirdi.

Humanitar, o cümlədən təhsil, mədəniyyət sahələrində də əlaqələrimizin uğurla inkişaf etdiyini vurğulayan Sergey Lavrov qeyd etdi ki, bu sahələrdə əməkdaşlıq xalqlarımız arasında olan yaxın münasibətləri daha da gücləndirir.

İqtisadi sahədə əməkdaşlıq məsələləri ilə bağlı Rusiyanın xarici işlər naziri qeyd etdi ki, beynəlxalq konyunkturaya baxmayaraq, bu əlaqələr yüksələn xətlə inkişaf edir.



## N.T. Qədimovanın Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Natəvan Tofiq qızı Qədimova Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 1 sentyabr 2015-ci il*

## Muxtar respublikada əhalinin səmərəli məşğulluğu təmin edilmişdir

***Naxçıvan Muxtar Respublikası bu gün özünün yüksəliş dövrünü yaşayır. Bu yüksəlişin təməlində ötən 20 il ərzində həyata keçirilən tədbirlər müstəsna rol oynamış, iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafı, yeni istehsal və xidmət sahələrinin yaradılması, mövcud müəssisələrin fəaliyyətə başlaması təmin edilmişdir ki, bu da, ümumilikdə, muxtar respublikada əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına təkan vermişdir.***

Qısa zaman ərzində əldə olunmuş uğurlar makroiqtisadi səviyyəni xarakterizə edən göstəricilərin müəyyən hissəsini deyil, ümumilikdə, hamısının pozitiv meyilli yüksəlişini təmin etmişdir.

Muxtar respublikada cari ilin yanvar-iyul aylarında ümumi inkişafı əks etdirən ümumi daxili məhsul istehsalı 1995-ci illə müqayisədə 30 dəfə artaraq 1 milyard 294 milyon 428 min manat təşkil etmişdir. Hər bir nəfərə düşən ümumi daxili məhsul istehsalı 22 dəfə artaraq 2936 manata çatmışdır. Bu dövr ərzində sənaye məhsulunun həcmi 62 dəfə, əsas kapitala yönəldilən investisiyalar 183 dəfə, kənd təsərrüfatının ümumi məhsulu 5 dəfə, nəqliyyat sektorunda yük daşınması 13 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 66 dəfə, ixracın həcmi 110 dəfə, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 25 dəfə artmışdır.

Naxçıvan Muxtar Respublikasında əmək bazarının tənzimlənməsində və əhalinin səmərəli məşğulluğunun təmin edilməsində mühüm tədbirlər, o cümlədən 2007-2010-cu illərdə məşğulluq strategiyasının həyata keçirilməsi və 2014-2015-ci illərdə əhalinin məşğulluğunun artırılması üzrə dövlət proqramlarının uğurlu icrası əsas rol oynamışdır. Belə ki, 1996-cı ildən 1 iyul 2015-ci il tarixədək muxtar respublikada 84783 yeni iş yeri açılmışdır ki, bunun da 58042-si və ya 68,5 faizi daimi iş yerləridir.

Yeni iş yerlərinin açılması, səmərəli məşğulluğun təmin edilməsi, sahibkarlığın inkişafı muxtar respublikada əhali gəlirlərinin artımına zəmin yaratmışdır. 1995-ci ildə muxtar respublikada bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı göstəricisi 15,9 manat təşkil edirdisə, hazırda bu göstərici 393 manat səviyyəsindədir. 2015-ci ilin yanvar-iyul aylarında muxtar respublikada əhali gəlirlərinin həcmi 1995-ci ildəki müvafiq göstəricini 31 dəfə üstələyərək 977 milyon 244 min manata, hər bir nəfərə düşən gəlirlər isə 24 dəfə artaraq 2217 manata çatmışdır.

Əhali gəlirlərinin artımı və əhalinin sosial müdafiəsinin gücləndirilməsi yoxsulluq səviyyəsinin ilbəil əhəmiyyətli dərəcədə aşağı düşməsinə, istehlak bazarında əmtəə dövriyyəsinin və pullu xidmətlərin həcminin artmasına müsbət şərait yaratmışdır. 2015-ci ilin yanvar-iyul aylarında muxtar respublikanın istehlak bazarında əhaliyə 703 milyon 520 min manatlıq istehlak malları satılmış və pullu xidmətlər göstərilmişdir. 1995-ci illə müqayisədə əmtəə satışının və pullu xidmətlərin həcmi 17,4 dəfə, o cümlədən pərakəndə əmtəə dövriyyəsi 16,7 dəfə artmışdır. Cari ilin ötən dövrü ərzində əhaliyə göstərilən pullu xidmətlərin həcmi isə 25 dəfə artaraq 94 milyon 927 min manat təşkil etmişdir.

Aparılan təhlillər göstərir ki, muxtar respublikada əhali artımına paralel olaraq həyata keçirilən məqsədyönlü tədbirlər, əmək bazarının tənzimlənməsi, səmərəli məşğulluğun təmini gələcəkdə daha da yaxşı yaşamağımıza ciddi əsaslar yaratmaqdadır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Payız-qış mövsümünə hazırlıq işləri sürətləndirilir

***2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən yığıncağı İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov açmışdır.***

Bildirmişdir ki, ənənəvi olaraq hər il Naxçıvan Muxtar Respublikası Ali Məclisində payız-qış mövsümünə hazırlıqla əlaqədar keçirilən müşavirədə əvvəlki qış mövsümündə buraxılmış nöqsanlar təhlil edilir, növbəti payız-qış mövsümündə qarşıya qoyulan tapşırıqların icrası istiqamətində vəzifələr müəyyənləşdirilir, aidiyyəti orqanların qış mövsümünə hazırlıqla bağlı gördüyü işlər haqqında məlumatları dinlənilir. Avqustun 28-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə Ali Məclisin Sədri aidiyyəti təşkilatlar qarşısında müxtəlif vəzifələr qoymuşdur.

Yığıncaqda Naxçıvan Şəhər Elektrik Şəbəkəsinin direktoru İqrar Əliyevin, Qaz İstismarı İdarəsinin rəis əvəzi Orxan Rüstəmovun, İstilik Təsərrüfatı İdarəsinin rəisi Vəli Həsənovun, “Naxçıvan Su-Kanalizasiya” Açıq Səhmdar Cəmiyyətinin sədri Elxan Abdullayevin 2015-2016-cı ilin payız-qış mövsümünə hazırlıqla bağlı məlumatları dinlənilmişdir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Vüqar Səfərov yığıncaqda məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, muxtar respublika sakinləri dayanıqlı elektrik enerjisi, təbii qazla təmin edilmişlər. Buna görə də aid orqanlar əhalinin və təsərrüfat subyektlərinin elektrik enerjisinə, təbii qaza və istiliyə olan tələbatının ödənilməsi, eləcə də digər infrastruktur sahələrinin qış mövsümündə normal fəaliyyət göstərməsi üçün hazırlıq işlərinə indidən xüsusi diqqət yetirir, lazımi mal-material ehtiyatı yaradılması diqqət mərkəzində saxlanılır.

Naxçıvan şəhərində fəaliyyət göstərən bir sıra idarə, müəssisə və təşkilatların qarşısında mühüm vəzifələr durduğunu yığıncaq iştirakçılarının diqqətinə çatdıran Vüqar Səfərov bildirmişdir ki, Naxçıvan Şəhər Elektrik Şəbəkəsi qış mövsümünə hazırlıqla əlaqədar mövcud transformatorların və yarımstansiyaların texniki baxışdan keçirilməsini sentyabr ayı ərzində təmin etməli, istismara yararsız, standartlara uyğun gəlməyən, bir çox hallarda qəzalara səbəb olan elektrik avadanlıq və xətlərinin yenilənməsini diqqət mərkəzində saxlamalı, Naxçıvan şəhərində yerüstü elektrik xətlərinin yeraltı kabellərlə



əvəz olunması və smartkarttipli sayğacların quraşdırılması davam etdirilməli, enerji israfçılığına yol verilməməlidir.

Naxçıvan Şəhər Qaz İstismarı İdarəsinin qarşısında duran vəzifələrdən də danışan icra başçısı vurğulamışdır ki, qaz təchizatı sistemində texniki baxış tədbirləri qısa müddətdə həyata keçirilməli, nöqsanlar vaxtında aşkar edilərək aradan qaldırılmalı, istismara yararsız vəziyyətə düşmüş qaz xətlərinin və avadanlıqlarının yenilənməsinə nəzarət artırılmalı, sayğacdankənar istifadə hallarının qarşısının alınması üçün tədbirlər görülməli, mövcud sayğacların smartkarttipli sayğaclarla əvəz edilməsi davam etdirilməlidir.

“İstilik Təsərrüfatı İdarəsi cari ilin oktyabr ayının 15-dək mərkəzləşdirilmiş və fərdi qazanxanalara texniki baxışı başa çatdırmalı, qazanxanalarda elektrik enerjisi, təbii qaz, su təchizatı və digər məsələləri araşdırıb nöqsanları aradan qaldırmalıdır”, – deyən icra başçısı vurğulamışdır ki, fərdi qazanxanalara reydlər təşkil olunmalı, sertifikatı olmayan ocaqçılar peşə kurslarına cəlb edilməlidirlər.

Abadlıq və Təmir-Tikinti İdarəsi Mənzil İstismar idarələri ilə birlikdə ictimai yaşayış binalarının zirzəmilərindən keçən istilik, su və kanalizasiya xətlərinin istismara yararlılığını araşdırmalı, su çənlərinin yığışdırılmasını başa çatdırmalı, binaların yararsız girəcək qapılarının və mərtəbələrarası pəncərə şüşələrinin oktyabr ayının 15-dək dəyişdirilməsini, Sanitar Təmizlik İdarəsi kommunal xidmət texnikalarının saz vəziyyətdə olmasını nəzarətdə saxlamalı, qış mövsümündə yolların vaxtında təmizlənməsini təmin etməlidirlər.

Naxçıvan Şəhər Nəqliyyat İdarəsi qış aylarında avtobusların texniki sazlığını diqqətdə saxlamalıdır. “Naxçıvan Su-Kanalizasiya” Açıq Səhmdar Cəmiyyəti sudan istifadə zamanı sayğacdankənar müdaxilə hallarının qarşısını almalı, avtomobilyuma sexlərində yeni çəkilmiş su xəttindən qeyri-qanuni istifadəyə nəzarəti gücləndirməli, oktyabr ayının 1-dək reydlər təşkil etməli, sayğaca müdaxilə halları aşkar edildikdə ciddi cəza tədbirləri görməlidir.

Bildirilmişdir ki, sosial obyektlərin mühafizəsinə, dövlət əmlakının qorunmasına diqqət artırılmalıdır. Aşkar edilmişdir ki, ümumtəhsil məktəblərində və digər sosial obyektlərdə fərdi qazanxanaların istilik qazanlarının yanma halları baş verir, bu da gözətçilərin və ocaqçıların öz işlərinə məsuliyyətsiz yanaşmasından, istədikləri vaxt obyekti tərk etmələrindən və qazanxanaları nəzarətsiz qoymalarından irəli gəlir. Belə hallar aşkar edilərkən mütəxəssislərin, Polis İdarəsi və Maliyyə Şöbəsi əməkdaşlarının iştirakı ilə tərtib edilmiş akt əsasında dəymiş zərərin məbləği müəyyənləşdirilməli və cavabdeh şəxslərdən tutularaq zərəri aradan qaldıran müəssisənin hesabına ödənilməlidir.

Polis İdarəsi Elektrik Şəbəkəsi ilə birlikdə standartlara uyğun olmayan elektrik plitələrinin, elektrik cihazlarının, sayğaca müdaxilə hallarının qarşısını almaq məqsədilə reydlər təşkil etməli, neqativ halların aradan qaldırılmasına nail olunmalıdır.

Yığıncaqda 2015-2016-cı ilin payız-qış mövsümünü mütəşəkkil başa vurmaq üçün ətraflı fikir mübadiləsi aparılmış, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsinin zəruriliyi vurğulanmışdır.

**Xəbərlər şöbəsi**

*Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 1 sentyabr 2015-ci il tarixli SQ-2/2015 saylı Qərarı ilə təsdiq edilmişdir*

# Beşinci çağırış Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərin hazırlanıb keçirilməsi üzrə əsas hərəkət və tədbirlərin Təqvim Planı

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 31 avqust tarixli Sərəncamı ilə beşinci çağırış Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər 2015-ci il noyabrın 1-nə, bazar gününə təyin edilmişdir.

| № | Əsas hərəkətlər və tədbirlər | İcraçılar | Keçirilmə müddətləri | |
|---|---|---|---|---|
| | | | "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununa əsasən | Tövsiyə olunan müddətlər |
| 1 | Dairə seçki komissiyalarının təşkil edilməsi | Püşkatma komissiyaları | Səsvermə gününə ən azı 55 gün qalmış **Maddələr 28.1, 28.4** | 2015-ci il sentyabrın 7-dək |
| 2 | Seçki dairələri üzrə namizədlərin irəli sürülməsi | Passiv seçki hüququ olan vətəndaşlar öz təşəbbüsləri ilə, seçicilərin təşəbbüs qrupları, siyasi partiyalar və siyasi partiyaların blokları | Seçkilərin təyin edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı rəsmi dərc edildikdən sonra **Maddələr 3, 49, 50** | |
| 3 | Namizədliyin irəli sürülməsinin təsdiq olunub-olunmaması barədə əsaslandırılmış qərarın qəbul edilməsi | Dairə seçki komissiyası | Müvafiq sənədlərin komissiyaya təqdim edilməsindən sonra 5 gün müddətində **Maddələr 49.6, 50.9** | |
| 4 | Namizədə və ya onun səlahiyyətli nümayəndəsinə, habelə siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə imza vərəqələrinin verilməsi | Dairə seçki komissiyası | Namizədliyin irəli sürülməsini təsdiq edən qərar qəbul edildiyi gündən başlayaraq **Maddələr 49.6, 50.9, 52.1** | |
| 5 | Namizədlərin müdafiəsi üçün seçici imzalarının toplanması | Naxçıvan Muxtar Respublikasında daimi yaşayan Azərbaycan Respublikasının 18 yaşına çatmış aktiv seçki hüququna malik vətəndaşı, namizəd, siyasi partiya, siyasi partiyaların bloku | Dairə seçki komissiyasının deputatlığa namizədliyin irəli sürülməsini təsdiq edən qərarından sonra **Maddələr 52, 53** | |
| 6 | Naxçıvan Muxtar Respublikasının bütün ərazisində müşahidə aparılmasına dair ərizələrin Mərkəzi Seçki Komissiyasına təqdim edilməsi<br><br>Seçki dairəsinin ərazisində müşahidə aparılmasına dair ərizələrin müvafiq seçki dairəsinin dairə seçki komissiyasına təqdim edilməsi<br><br>Səsvermə gününədək seçki komissiyasının iclasını müşahidə etmək üçün xüsusi icazə almaqdan ötrü Mərkəzi Seçki Komissiyasına müraciət edilməsi | Naxçıvan Muxtar Respublikasında daimi yaşayan aktiv seçki hüququna malik Azərbaycan Respublikasının vətəndaşı öz təşəbbüsü ilə, habelə qeydə alınmış namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun, seçkilər sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatının təşəbbüsü əsasında; beynəlxalq (xarici) müşahidəçilər (qanunla müəyyənləşdirilmiş qaydada müvafiq dəvət əsasında Naxçıvan Muxtar Respublikasına gəlib Mərkəzi Seçki Komissiyasında qeydiyyatdan keçməklə) | Seçkilər elan edildiyi gündən başlayaraq seçkilərin keçirilməsi gününə 10 gün qalanadək **Maddələr 1.1.15, 37.5, 37.6, 41**<br>Dairə seçki komissiyalarının təşkil edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 5 gün qalanadək **Maddələr 1.1.15, 37.5, 37.7**<br>Seçkilərin elan edildiyi gündən başlayaraq seçkilərin keçirilməsinə 10 gün qalanadək **Maddələr 1.1.15, 37.4, 37.5, 37.13** | 2015-ci il oktyabrın 22-dək<br><br>2015-ci il oktyabrın 27-dək<br><br>2015-ci il oktyabrın 22-dək |
| 7 | Müşahidəçilərin qeydə alınması və onlara Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi formada hazırlanmış lövhəciklərin verilməsi | Mərkəzi Seçki Komissiyası, dairə seçki komissiyaları | Müşahidə aparılması barədə qərar ərizənin verildiyi tarixdən Mərkəzi Seçki Komissiyası tərəfindən 3 gün, dairə seçki komissiyası tərəfindən isə 2 gün müddətində qəbul edilir **Maddələr 23.2.17, 37.6, 37.7, 41.4** | |
| 8 | Dairə və məntəqə seçki komissiyaları üzvlərinin təlimatlandırılması ilə əlaqədar treninqlərin təşkili və peşə hazırlığının artırılması ilə bağlı digər proqramların həyata keçirilməsinin təmin edilməsi | Mərkəzi Seçki Komissiyası, dairə seçki komissiyaları | **Maddə 23.2.6** | Mütəmadi |
| 9 | Teleradio verilişləri və digər yayım qurumları vasitəsilə seçki qanunvericiliyinin izahı, seçki subyektlərinin hüquqi biliklərinin artırılmasının təmin olunması | Mərkəzi Seçki Komissiyası | **Maddə 23.2.6** | Mütəmadi |
| 10 | Namizədin qeydə alınması üçün zəruri seçki sənədlərinin təqdim edilməsi | Namizəd və ya onun səlahiyyətli nümayəndəsi, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi | Səsvermə gününə ən çoxu 45 və ən azı 25 gün qalmış saat 18.00-dək **Maddə 54.1** | 2015-ci il sentyabrın 17-dən oktyabrın 7-si saat 18:00-dək |
| 11 | İmza vərəqələrində və təqdim edilən digər sənədlərdə olan məlumatların düzgünlüyünün yoxlanılması və namizədin qeydə alınıb-alınmaması haqqında qərarın qəbul edilməsi | Dairə seçki komissiyası | Sənədlər qəbul edildikdən sonra 10 gün müddətində **Maddə 56** | |
| 12 | Namizəd, siyasi partiya, siyasi partiyaların bloku tərəfindən təyin olunmuş vəkil edilmiş şəxslərin qeydə alınması və onlara lövhəciklərin verilməsi | Dairə seçki komissiyası | Vəkil edilmiş şəxslərin təyin edilməsi barədə namizədin yazılı ərizəsinin və ya siyasi partiyanın, siyasi partiyalar blokunun təqdimatının, habelə vətəndaşın vəkil edilmiş şəxs olmaq barədə razılıq ərizəsinin daxil olduğu gündən başlayaraq 3 gün müddətində **Maddələr 59.1, 59.2, 59.4** | |
| 13 | Seçicilərin tanış olması və əlavə dəqiqləşdirmələr aparılması üçün seçici siyahılarının təqdim edilməsi | Məntəqə seçki komissiyaları | Səsvermə gününə azı 25 gün qalmış **Maddə 44.1** | 2015-ci il oktyabrın 7-dək |
| 14 | Qeydə alınmış namizədə qeydiyyat vəsiqəsinin verilməsi | Dairə seçki komissiyaları | Qeydə alındıqdan sonra **Maddə 56.7** | |
| 15 | Qeydə alınmış namizədlərin seçki dairələri üzrə siyahısının Qanunun 64.1-ci maddəsində göstərilən dövri nəşrlərdə dərc edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 14 gün qalmış **Maddə 56.10** | 2015-ci il oktyabrın 18-dək |
| 16 | Seçkiqabağı təşviqatın aparılması | Qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri | Səsvermə gününə 12 gün qalmış başlayır və səsvermənin başlanmasına 24 saat qalmış dayandırılır **Maddə 63** | 2015-ci il oktyabrın 20-dən oktyabrın 31-i saat 08:00-dək |
| 17 | Seçki məntəqələrinin yaradılması | Seçicilərin olduqları ərazilərdə müvafiq yerli icra hakimiyyəti orqanları və bələdiyyə qurumları ilə razılaşdırmaqla dairə seçki komissiyaları | Səsvermə gününə azı 35 gün qalmış **Maddələr 32.2, 32.4** | 2015-ci il sentyabrın 27-dək |

| | | | | |
|---|---|---|---|---|
| 18 | Seçkilərə 5 gün qalmış yaradılması nəzərdə tutulan seçki məntəqələrinin yaradılması | Müvafiq dairə seçki komissiyasının qərarına uyğun olaraq hərbi hissələrin komandirləri və cəzaçəkmə müəssisəsinin rəhbəri | Səsvermə gününə azı 5 gün qalmış **Maddə 32.4** | 2015-ci il oktyabrın 27-dək |
| 19 | Məntəqə seçki komissiyalarının təşkil edilməsi | Dairə seçki komissiyası | Səsvermə gününə ən azı 30 gün qalmış **Maddə 33.1** | 2015-ci il oktyabrın 2-dək |
| 20 | Nömrələri və hüdudları göstərilən seçki məntəqələrinin siyahısının (seçki məntəqəsi yaşayış məntəqəsi ərazisinin bir hissəsini əhatə etdikdə), yaşayış məntəqələrinin siyahısının (seçki məntəqəsi bir neçə yaşayış məntəqəsində yaradılmışsa), habelə məntəqə seçki komissiyalarının səsvermə otaqlarının yerləri (ünvanları) və məntəqə seçki komissiyalarının telefon nömrələri haqqında məlumatların dərc edilməsi | Dairə seçki komissiyası | Səsvermə gününə azı 25 gün qalmış<br>Qanunun 32.5-ci maddəsində göstərilmiş müddətdə yaradılan seçki məntəqələri haqqında məlumat isə onların yaradılması günündən ən geci 2 gün keçənədək **Maddə 32.6** | 2015-ci il oktyabrın 7-dək<br>2015-ci il oktyabrın 30-dək |
| 21 | Seçkiqabağı təşviqatın aparılması üçün müvafiq yerlərin ayrılması | Dairə seçki komissiyasının sifarişi ilə yerli icra hakimiyyəti orqanı və bələdiyyə qurumları | **Maddə 73.3** | |
| 22 | Seçki komissiyalarının səsvermə protokollarının hazırlanması qaydasına, mətninə, formasına və sayına aid tələblərin təsdiq edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə ən azı 25 gün qalmış **Maddələr 87.1-87.6** | 2015-ci il oktyabrın 7-dək |
| 23 | Seçki bülletenlərinin mətninin, formasının, sayının və hazırlanmasına aid tələblərin təsdiq edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə gününə azı 25 gün qalmış **Maddələr 86.1-86.4** | 2015-ci il oktyabrın 7-dək |
| 24 | Hər bir seçki məntəqəsi üzrə təsdiq edilmiş seçici siyahılarının dəqiqləşdirilməsi:<br>a) yolu çətin və ya ucqar yerlərdə yaradılan seçki məntəqələri üzrə seçici siyahılarının dəqiqləşdirilməsi;<br>b) hərbi hissələrin, istintaq təcridxanalarının və cəzaçəkmə müəssisələrinin ərazilərində yaradılan seçki məntəqələri üzrə seçicilərin (hərbi hissələrdə yerləşən hərbi qulluqçuların, hərbi hissələrin yerləşdiyi ərazinin hüdudlarında yaşayan hərbi qulluqçu ailələrinin, istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslərin və cəzaçəkmə müəssisələrində cəza çəkən məhbusların və digər seçicilərin) siyahılarının dəqiqləşdirilməsi | Dairə və məntəqə seçki komissiyaları<br>Seçicilər haqqında təqdim edilən məlumatlar əsasında məntəqə seçki komissiyası<br>Hərbi hissə komandirlərinin, istintaq təcridxanaları və cəzaçəkmə müəssisələri rəhbərlərinin seçicilər haqqında təqdim etdikləri məlumatlar əsasında məntəqə seçki komissiyası | Səsvermə gününə azı 20 gün qalanadək **Maddə 42** | 2015-ci il oktyabrın 12-dək |
| 25 | Səsvermə protokollarının hazırlanması | Mərkəzi Seçki Komissiyasının qərarı ilə müvafiq poliqrafiya müəssisəsi | Səsvermə gününə ən geci 10 gün qalmış **Maddə 87.6** | 2015-ci il oktyabrın 22-dək |
| 26 | Seçki günü, səsvermənin yeri və vaxtı barədə kütləvi informasiya vasitələri və ya məlumat lövhələri vasitəsi ilə seçicilərin xəbərdar edilməsi | Məntəqə seçki komissiyaları | Səsvermə gününə azı 20 gün qalmış **Maddə 88.1** | 2015-ci il oktyabrın 12-dək |
| 27 | Seçki bülletenlərinin və səsvermə protokollarının Mərkəzi Seçki Komissiyasından dairə seçki komissiyasına, dairə seçki komissiyasından məntəqə seçki komissiyasına verilməsi | Mərkəzi Seçki Komissiyası, dairə seçki komissiyaları | Səsvermə gününə azı 5 gün qalmış<br>Səsvermə gününə ən azı 3 gün qalmış **Maddələr 86.6, 87.8** | 2015-ci il oktyabrın 27-dək<br>2015-ci il oktyabrın 29-dək |
| 28 | Seçki bülletenlərinin hazırlanması | Mərkəzi Seçki Komissiyasının qərarı ilə müvafiq poliqrafiya müəssisəsi | Səsvermə gününə ən azı 10 gün qalmış **Maddə 86.4** | 2015-ci il oktyabrın 22-dək |
| 29 | Səsvermənin keçirilməsi | Məntəqə seçki komissiyası | **Maddə 88** | 2015-ci il 1 noyabr: saat 08:00-dan 19:00-dək |
| 30 | Səsvermənin nəticələri haqqında məntəqə seçki komissiyasının yekun protokolunun 1-ci nüsxəsinin ona əlavə edilən sənədlərlə birlikdə dairə seçki komissiyasına göndərilməsi | Məntəqə seçki komissiyası | Seçicilərin səslərinin hesablanmasına yekun vurulduqdan dərhal sonra, lakin səsvermə müddəti başa çatdıqdan sonra 24 saatdan gec olmayaraq **Maddə 89.8** | |
| 31 | Məntəqə seçki komissiyasının yekun protokolunun 3-cü nüsxəsinin məlumat lövhəsində yerləşdirilməsi | Məntəqə seçki komissiyaları | Protokol tərtib edildikdən sonra asılmaqla 5 gün müddətində **Maddə 89.11** | |
| 32 | Seçki dairəsi üzrə seçkilərin nəticələrinin müəyyən olunması, məntəqə seçki komissiyalarının protokollarında olan bütün məlumatların ümumiləşdirilməsi əsasında dairə seçki komissiyası protokolunun tərtib edilməsi və protokolun 1-ci nüsxəsinin ona əlavə edilən sənədlərlə birlikdə Mərkəzi Seçki Komissiyasına təqdim olunması | Dairə seçki komissiyaları | Səsvermə günündən ən geci 2 gün keçənədək **Maddələr 90.1-90.4** | 2015-ci il noyabrın 3-dək |
| 33 | Dairə seçki komissiyası protokolunun 3-cü nüsxəsinin və müvafiq məntəqə seçki komissiyaları protokollarının surətlərinin məlumat lövhəsində yerləşdirilməsi | Dairə seçki komissiyaları | Protokol tərtib edildikdən sonra (10 gün saxlanılmaqla) **Maddə 90.7** | |
| 34 | Seçkilərin ilkin nəticələrinin seçki dairələri üzrə ümumiləşdirilmiş cədvəl şəklində dərc edilməsi və həmin məlumatların Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilməsi | Mərkəzi Seçki Komissiyası | Seçki dairələri üzrə səsvermənin nəticələrinə dair protokollar Mərkəzi Seçki Komissiyasına təqdim edildikdən dərhal sonra **Maddə 96.1** | |
| 35 | Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin yekunlarının və nəticələrinin yoxlanılması<br>Seçkilərin yekunlarının və nəticələrinin təsdiq olunması üçün Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə təqdim olunması | Mərkəzi Seçki Komissiyası | Səsvermə günündən ən geci 10 gün keçənədək **Maddə 93.2**<br>Protokollar yoxlanıldıqdan dərhal sonra **Maddə 93.2** | 2015-ci il noyabrın 12-dək |
| 36 | Ali Məclisə seçkilərin yekunlarının və nəticələrinin yoxlanılması, təsdiq edilməsi | Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi | Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Mərkəzi Seçki Komissiyası tərəfindən təqdim edilən sənədləri aldıqdan sonra 10 gün müddətində (yoxlama prosesi tələb etsə, həmin müddət artırıla bilər) **Maddə 93.3** | |
| 37 | Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilmiş şəxsə deputat vəsiqəsinin verilməsi | Mərkəzi Seçki Komissiyası | Seçkilərin ümumi yekunları rəsmi dərc edildikdən sonra **Maddə 95.4** | |
| 38 | Dairə seçki komissiyalarının protokollarında olan məlumatların tam şəkildə dərc edilməsi (həmin məlumatlar Mərkəzi Seçki Komissiyasının internet saytında yerləşdirilə bilər) | Mərkəzi Seçki Komissiyası | Səsvermə günündən sonra 30 gün müddətində **Maddə 96.2** | 2015-ci il dekabrın 1-dək |
| 39 | Səsvermənin nəticələri və seçkilərin yekunları haqqında məntəqə və dairə seçki komissiyalarının protokollarında olan məlumatların seçkilərə hazırlıq, seçkilərin keçirilməsi, müşahidəçi rəyi, seçilmiş deputatlar barədə ətraflı məlumatları özündə əks etdirən bülletenin dərc edilməsi | Mərkəzi Seçki Komissiyası | Səsvermə günündən sonra 6 ay müddətində **Maddə 96.5** | 2016-cı il mayın 1-dək |

## Naxçıvan şəhərində ənənəvi məktəbli yarmarkası keçirilir



Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Mərkəzi bazarda ənənəvi məktəbli yarmarkası keçirilir.

Məktəbli yarmarkasında dərs ləvazimatları, məktəbli və idman formaları, məktəbli çantası, bədii ədəbiyyatlar və başqa ləvazimatlar alıcılara digər satış yerlərindən 20-25 faiz aşağı qiymətə təklif olunur. Yarmarkada ayrı-ayrı fənlər üzrə əyani vəsaitlərin satışına da geniş yer ayrılıb. Burada satılan lüğət və digər nəşrlərə, dünya uşaq ədəbiyyatı nümunələrinə, bədii və elmi ədəbiyyata böyük alıcı marağı vardır. Satılan bütün məhsulların keyfiyyətinə və qiymətinə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyi tərəfindən mütəmadi nəzarət olunur.

Satış yerlərinin hər birində məhsulların çeşid zənginliyi, keyfiyyəti, satış qiymətlərinin əlverişli olması, xidmətin təşkili alıcılar tərəfindən razılıqla qarşılanır. Həmsöhbət olduğumuz valideynlər Səyyarə Novruzova və Ülviyyə Əliyeva dedilər ki, dükan və bazarlardakı qiymətlərlə yarmarkadakı qiymətləri müqayisə ediblər və bu qiymətlər arasında xeyli fərq olduğunu görüblər. Bu da imkan verir ki, daha az vəsaitlə ləvazimatların hamısını və ən keyfiyyətlilərini alsınlar. Valideynlər belə yarmarkaların təşkil olunmasına görə dövlətimizə minnətdarlıqlarını bildirirlər.

Məlumat üçün deyək ki, 23 sahibkarlıq subyektinin iştirak etdiyi məktəbli yarmarkası sentyabrın 15-dək davam edəcək.

✍ **Rauf ƏLİYEV**



## Çoxuşaqlı aztəminatlı ailəyə baş çəkilib

Muxtar respublikada aparılan uğurlu sosial siyasət nəticəsində ailələrin rifah halı, yaşayış şəraiti yaxşılaşdırılıb. Aylıq gəlirləri ehtiyac meyarından az olan aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımlarının təyin olunması, 18 yaşınadək beşdən çox uşağı olan ailələrə müəyyən miqdarda maddi yardım verilməsi bu siyasətin tərkib hissəsidir. Bundan əlavə, bu ailələrə mütamadi baş çəkilir, zəruri ehtiyacların ödənilməsinə köməklik göstərilir.

Avqustun 31-də Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin birgə təşkilatçılığı ilə Ordubad rayonunun Dəstə kəndində yaşayan çoxuşaqlı aztəminatlı Cəfərovlar ailəsinə baş çəkilib. Adıçəkilən təşkilatların əməkdaşları ailənin yaşayış vəziyyəti ilə maraqlanıb, ailə üzvlərini tibbi müayinədən keçirib, onlara ərzaq payı veriblər.

Çoxuşaqlı aztəminatlı ailənin üzvləri dövlətin onlara göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Kitab evi kitabsevərlərin üz tutduğu ünvandır




***Kitab bilik mənbəyidir. Bu kəlam öz aktuallığını itirmir, əksinə həyatımızın, təhsilimizin şüarına çevrilir. İnsan oxuduğu kitablarla kamilləşir, həyatda var olmaq üçün lazım olan informasiyanı kitabdan alır.***

Muxtar respublikada kitabxanalar, kitab satılan mağazalar çoxdur. Onlardan biri də Naxçıvan şəhərinin Heydər Əliyev prospektində yerləşən Kitab evidir. Kitab evinin fəaliyyəti ilə tanış olmaq üçün həmin ünvana üz tutduq. Kitab bölməsində çalışan Günel Məmmədova ilə həmsöhbət olduq. O, vaxtının çox hissəsini kitablarla keçirir. Deyir ki, bu qədər kitablarla zəngin olan otaqda boş oturmaq olmaz. Hal-hazırda Günelin oxuduğu kitab Bernhard Şlinkin "Qiraətçi" romanıdır. Oxucu kimi diqqətimizə çatdırır ki, kitab təzə yola bənzəyir. Nə qədər çox getsən, bir o qədər yeniliklərlə qarşılaşacaqsan.

Burada bədii kitablar, hüquq ədəbiyyatı, iqtisadiyyat, tibb ədəbiyyatı, xarici ölkə ədəbiyyatları, kulinariya və digər sahələrə aid kitablar satılır. Günel xanım bir məsələni xüsusi vurğuladı. Bildirdi ki, Kitab evindəki bukinist bölməsinin fəaliyyətindən istifadə edənlərin sayı getdikcə artır. Bu bölmənin digərlərindən fərqi ondadır ki, burada əhali tərəfindən satılmaq üçün verilmiş ensiklopediyalar, müəyyən elm sahələri ilə bağlı kitablar qəbul edilir.



Günel xanıma buradakı kitabların satışı, qiyməti ilə bağlı neçə sual verdik.

***– Alıcılar daha çox hansı müəlliflərin kitablarına üstünlük verirlər?***

– Demək olar ki, bura daha çox gənclər, tələbələr və müəllimlər, həmçinin elm adamları müraciət edirlər. Teodor Drayzer, Elxan Elatlı, Çingiz Abdullayev, Varisin dedektiv janrda kitablarına daha çox müraciət olunur. Son bir ildə sifariş də qəbul etməyə başlamışıq. Alıcılar kitabın müəllifini və adını deməklə qısa zaman ərzində kitabı əldə edə bilərlər.

***– Oxucuları qiymətlər qane edirmi?***

– Buradakı kitabların qiyməti nəşriyyatlar tərəfindən təyin edilmişdir və alıcıların imkanlarına uyğun şəkildədir.

Kitab evi oxucuları maarifləndirmək üçün çalışır ki, ən son nəşr edilən kitablar bura gətirilsin. Bunun üçün də əlimizdən gələni əsirgəmirik. Kitab evi 10 ilə yaxındır, yaradılmışdır. Bu müddətdə heç bir alıcı narazı qalmamış və hər zaman buranın fəaliyyətindən razılıq eşitmişik. Bura onların sevimli məkanıdır. Sonda fikrimi Qasım bəy Zakirin bir kəlamı ilə bitirmək istərdim:

*Axmaqlarla oturub durmaqdandırsa, kitablarla tənha olmaq yaxşıdır.*

**Nigar MUSTAFAYEVA**

## Sağlamlığın qorunmasında çoxprofilli həkim briqadalarının rolu artır

***Son illər səhiyyə infrastrukturunun yeniləşdirilməsi istiqamətində görülən işlər çoxprofilli həkim briqadalarının fəaliyyətinə ciddi stimul vermiş, əhalinin hər bir təbəqəsinin keyfiyyətli tibbi xidmətlə əhatə olunmasına şərait yaratmışdır.***

Hazırda aran zonaları ilə yanaşı, ucqar dağlıq və sərhəd kəndlərində yaşayan əhalinin də maddi və mənəvi çətinliklər çəkmədən yerindəcə kütləvi şəkildə profilaktik tibbi müayinələrlə əhatə olunması, adamların vaxtında müalicəyə cəlb edilməsi səhiyyə sistemi qarşısında duran mühüm vəzifələrdən biridir.

Bu vəzifələri yerinə yetirmək üçün həkim briqadaları ötən avqust ayında da səmərəli fəaliyyət göstərmişlər. Onların yerlərə gedişi qrafik əsasında tənzimlənmiş, müayinələrin kütləviliyinə nail olunmuşdur. Müayinələr isə son illərin quruculuq ünvanlarında – müasirtipli xəstəxanalarda, həkim ambulatoriyalarında, feldşer-mama məntəqələrində aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin, Mərkəzi Uşaq Xəstəxanasının həkim briqadaları Şərur rayonunun Şahbulaq, Ordubad rayonunun Xanağa kəndlərində olmuş, əhalinin müxtəlif təbəqələrini tibbi müayinədən keçirmişlər. Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim briqadası isə Sədərək Rayon Mərkəzi Xəstəxanasında 7 laboratoriya, 2 ultrasəs, 27 ginekoloji, 6 pediatrik müayinələr aparmış, həmçinin Naxçıvan şəhərindəki 11 nömrəli Uşaq bağçasında işləyən 29 qadın işçinin ultrasəs müayinəsinə nail olmuşdur.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının yüksəkixtisaslı həkim briqadası Püsyan kəndində 63 nəfəri tibbi müayinələrlə əhatə etmiş, 14 elektrokardioqrafiya müayinəsi, 30 nəfərdə qanın ümumi analizini aparmışdır.

Şahbuz rayonunun Kükü kəndində Naxçıvan Muxtar Respublika Xəstəxanası tərəfindən 15, Kardioloji Mərkəz tərəfindən isə 24 nəfər müayinə olunmuş, 5 nəfər dispanser qeydiyyatına alınmışdır.

Naxçıvan Muxtar Respublikası Ağciyər Xəstəlikləri Dispanserinin briqadası Babək rayonunun Nehrəm kəndində dispanser qeydiyyatında olan xəstələrin sayını dəqiqləşdirmişdir.

Ay ərzində Şərur Rayon Mərkəzi Xəstəxanası tərəfindən Axaməd kəndi və Sədərək rayonunda 159, Babək Rayon Mərkəzi Xəstəxanası tərəfindən Kültəpə kəndində 66, Kəngərli Rayon Mərkəzi Xəstəxanası tərəfindən isə Böyükdüz kəndində 23 nəfər tibbi müayinələrdən keçirilmiş, laborator müayinələr aparılmışdır.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin cari il üçün iş planına uyğun olaraq, həkim briqadaları yay mövsümünü yaylaqlarda keçirən heyvandarlara, onların ailələrinə göstərilən səhiyyə xidmətini də diqqət mərkəzində saxlamışlar.

Ordubad Rayon Mərkəzi Xəstəxanasının çoxprofilli həkim briqadası "Tüklü çəmən" və "Keçi qalası" obalarında məskunlaşan 25 nəfər heyvandarı və onların ailələrini, Culfa Rayon Mərkəzi Xəstəxanası Ləkətağ kəndi ərazisində yerləşən "Dəmirli" yaylağında 3 çoban ailəsinin 11 üzvünü, Şahbuz Rayon Mərkəzi Xəstəxanası Nursu, Keçili və Gömür kənd obalarında heyvandarları və onların ailə üzvlərini profilaktik tibbi müayinələrə cəlb etmiş, pediatrik, kardioloji, cərrahi, stomatoloji müayinələr aparmış, sarğı materialları, ağrıkəsicilər, antibiotiklər və digər ilkin tibbi yardım üçün dərmanlar paylanmışdır.

Gigiyena və epidemiologiya mərkəzləri tərəfindən obalarda dezinfeksiya, dezinseksiya tədbirləri həyata keçirilmişdir.

Mövsümi xəstəliklərin qarşısının alınması məqsədilə sanitariya maarifi işi aparılmış, günvurma, ilançalma, həşəratsancma zamanı ilkin tibbi yardım barədə məlumat verilmişdir.

Aşkar olunan ilkin xəstələrin müvafiq səhiyyə müəssisələrində dərin tibbi müayinələrə cəlb edilməsi məsləhət görülmüş, onlara ambulator kartlar açılmış, kəndlər üzrə dispanser qeydiyyatında duran xroniki xəstələrin sayı dəqiqləşdirilmişdir.

Kənd səhiyyə müəssisələrində peyvəndlərin icra vəziyyəti, ambulator qəbul, evə çağırış, ailə, dispanser xəstələrin, hamilələrin və peyvəndlərin qeydiyyatı jurnalları yoxlanılmış, çatışmazlıqların aradan qaldırılması üçün lazımi tapşırıqlar verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Şahbuzda voleybol birinciliyi

Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının Şahbuz rayon bölməsinin və Şahbuz Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında Şahbuz rayonunun idarə, müəssisə, təşkilat və kənd inzibati ərazi dairələrinin voleybol komandaları arasında rayon birinciliyi keçirilib.

Yarışın keçirilməsində məqsəd gənclərə zərərli vərdişlərin insan həyatı üçün nə dərəcədə mənfi hal olduğunu aşılamaq, rayonda voleybol idman növünün kütləviliyinə nail olmaq və Şahbuz rayon voleybol yığma komandasının tərkibinə yeni istedadlı gəncləri daxil etmək idi. Olimpiya sistemi üzrə 4 gün davam edən birincilikdə 10 komanda mübarizə aparıb.

Finala gedən yolda bütün rəqiblərini məğlub edən İcra Hakimiyyətinin komandası ilə Kükü kənd inzibati ərazi dairəsinin komandası həlledici qarşılaşmada üz-üzə gəliblər. Daha üstün oyun sərgiləyən birincilər meydanı 3:1 hesablı qələbə ilə tərk ediblər.

Sonda qalib komandaya kubok, medal və diplom təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

**Baş redaktor:** TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Kərəm Həsənov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 674